# QƏZƏLLƏR

## Mirzə Şəfi Vazeh



http://www.kitablar.com
http://www.kitablar.org/

Nə qədər kim, fələyin sabitu səyyarəsi var,
Ol qədər sinədə qəmzən oxunun yarəsi var.
Deyil əflakdə kövkəb görünən, çərxi-bülənd
Oluban didə, sərapa sənə nəzzarəsi var.
Ruzigarı tirə, daim ki şəbi tar keçər,
hər kimin eşqdə bir yari-sitəmkarəsi var.
Neçə xun cuşə gəlib, eyləməsin ahü fəğan?
Könlümün dideyi-giryan kimi fəvvarəsi var!
Ol qəzəldir ki, bu, Vazeh dedi, bir dərd əhli
Zahirən lalə otağında qonaq-qarəsi var.
Bizə həmsöhbət olan özkə kitab almaz ələ,
Sən də zahidliyin ol dəftərini tulla selə.
Mən yarın xəstəsiyəm, eşqdən özkə demə söz,

Məni dildarımın eşqi beləcə saldı çölə.
O zamandan ki, mənim qəlbimə yol tapdı o yar,
Unuda bilməyirəm mən onu bir an da belə.
Bu fələk kim, sənə ulduzla bəzənmiş görünür,
Bəlkə aşiqdir o da sirrini faş etməz hələ?
İndi gül fəslidi, çöllərdə tamaşa dəmidir,
Çıx çəmən seyrinə, mey məclisi qur, şadlıq elə.
Yardan versə xəbər Vazehə o badi-səhər,
Qəbrdə olsa əgər bil ki, gələr bir də dilə.
Xoş olsun ol könül, eşqə məkandır,
Var olsun ol fikir, eşqə həyandır.
Susuz çeşməyə bənzər ol ürək kim,
Nə eşqin dərdini, nə qəm duyandır.
Bax, öyrən gör neçə pərvanə, bülbül
Olublar eşq şeydası zamandır.
Məhəbbət əhlinə bu kafidir kim,
Öz eşqiylə o, rüsvayi-cahandır.
Məhəbbət mürqi cövlan etsə harda
O eşq ovlar, xəbərdar ol, amandır.
İki dünyanı verrəm sən baxanda,
Mənə eşqin bu sövdası əyandır.
Necə, Vazeh, əsiri olmayım mən
Bu eşqin qarşısında Qaf yalandır.
Gəl, ey canım ki, hicrində dodağa çatdı bu canım,
Dodağın qoy dodağıma, özün al canı, cananım.
Sənin atəşli çöhrəndən iki xislət doğub məndə.
Gözüm ağlar, özüm yannam, inan ey çeşmi-məstanım.
Xoşam, qəmlə sevinc tutsa əgər dünyanı hər yandan
Nə onla, nə bununlayam, mənim eşq oldu ürfanım.
Tacım ah, göz yaşım təxt, ləşkərim dərddir, qəmim ölkəm,
Mən eşqə sultan olsam da sənin eşqindi sultanım.
Fənayə uğrasam da bil, fəqət məhv olmaram, canan,
Bu müşkül hikməti özkə təbibdən sorma, loğmanım.
O şirin ləlidən şəhdü şəkər hərgah nəsib olsa,
Mələklər nuşi-can seylər, mənə göylərdən, ey xanım.
Nigarım, vaxt gəlib çatdı, bu xəstə aşiqi yad et,
Mən öylə xəstəyəm, yalnız sənin vəslindi dərmanım.
Kim eşqin dərdinə yansa, o nalə eyləyər hər dəm,
Mən öylə gizli yannam ki, nə naləm var, nə əfqanım.
O mişkin zülflərin şövqü, o ay tək çöhrənin mehri

Gecəylə gündüzü almış əlimdən, mahi-təbanım.
O yarın zülfü ruyindən sən ümmid gözləmə,
Vazeh, Tutarsan Çinü Maçini, əlində vardır imkanın.
O gözəl boy-buxunun keçsə nəzərdən nə zaman,
Gözlərim yaşla dolur, qəlbim olur dopdolu qan.
Qadağan eyləmə, şeyx, yar üzünə baxmağımı,
Nə bilirsən necə ləzzət duyulur axmaqdan?!
Göz önündən keçərək məhv eləyir gündə məni,
Necə gün çıxsa solur ay üzünün nuru haman.
Etinasızlıq edərsən bu qədər aşiqinə,
Nə zaman daməninə əl yetər, ey afəti-can?
Vazehin sözləri şəkkər kimidir, çünki onun
Şux, gözəl ləbləridir şerinin ilhamı olan.